

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 59 (23.701)

3 aprel 2021-ci il, şənbə

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Türkiyə Respublikasının Ticarət naziri xanım Ruhsar Pekcanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Türkiyədə Azərbaycanın uğurlarından qürur duyulduğunu deyən Ruhsar Pekcan Vətən müharibəsi zamanı türk xalqının Azərbaycandakı hadisələri və Prezident İlham Əliyevin fəaliyyətini yaxından izlədiyini, qazanılan uğurlara sevindiklərini bildirib.

Prezident İlham Əliyev Türkiyə xalqının dəstəyini hər zaman hiss etdiyini və Vətən müharibəsində də Türkiyə ictimaiyyətinin Azərbaycanın yanında olduğunu vurğulayıb. Dövlətimizin başçısı müharibənin ilk günündən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın verdiyi önəmli bəyanatları yüksək qiymətləndirib. Dövlətimizin başçısı Vətən müharibəsində Türkiyə mətbuatının fəaliyyətinə toxunub, müharibə ilə bağlı məlumatların dünyaya yayılmasında onun xüsusi rolunu yüksək qiymətləndirib.

Həm müharibə zamanı, həm də sonrakı dövrdə Türkiyə ictimaiyyətindən çoxlu dəstək məktubları aldığını deyən ölkəmizin başçısı bunun birliyimizin növbəti təzahürü olduğunu bildirib.



*Dövlət proqramı icra olunur*

## Meyvəçiliyin inkişafı yeni mərhələyə qədəm qoyub

*Əlverişli oroqrafik xüsusiyyətlərə və torpaq-iqlim amillərinə malik olan Naxçıvan Muxtar Respublikasında meyvəçilik 1996-cı ildən yüksələn xətt üzrə inkişaf etdirilir. Həmin dövrdə ümummilli lider Heydər Əliyevin layiqli davamçısı cənab Vasif Talıbovun Naxçıvan Muxtar Respublikasına rəhbər seçilməsilə bu qədim diyarda kənd təsərrüfatının mühüm sahəsi olan meyvəçiliyin inkişafında uğurlu mərhələ başlandı. Kənd təsərrüfatının digər sahələri ilə yanaşı, meyvəçiliyin inkişafı üçün də həllivacib tədbirlər haqqında imzalanan sərəncamların, proqram və layihələrin icrası istiqamətində həyata keçirilən tədbirlər bunu deməyə əsas verir.*

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)", "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı", "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası nəticəsində meyvəçilik sahəsində yüksək göstəricilərə nail olunub. Qeyd edilən proqramların icrası zamanı muxtar respublikanın meyvə genofondunun qorunub saxlanması və genişləndirilməsi, aborigen meyvə





sortlarının mütərəqqi üsullarla aparılan tədqiqatlar əsasında, sistemli şəkildə öyrənilməsi, həmçinin ərzaq təhlükəsizliyi baxımından əhalinin keyfiyyətli, ekoloji təmiz məhsullarla təmin olunması, rəqabətədavamlı məhsul istehsalının stimullaşdırılmasında rol oynayan yeni intensivtipli meyvə bağları salınması, müasir texnoloji prinsiplərə əsaslanan meyvə emalı müəssisələrinin yaradılması, xüsusilə diqqətdə saxlanılıb.

Qeyd edək ki, 1996-cı ildə 1995-ci illə müqayisədə 480 hektardan çox yeni meyvə bağı salınaraq meyvəçilik üzrə ümumi əkin sahəsi 1586 hektara çatdırılıb. 2001-ci ildə muxtar respublikada meyvə bağlarının ümumi əkin sahəsi 2248 hektara çatdırılıb, 2005-ci ildə isə bu bağların ümumi sahəsi 2746 hektara çatıb ki, onların da 2424 hektarı barverən yaşda olub. Ötən dövrdə hər il meyvə bağlarının əkin sahələri artırılıb ki, bu da, öz növbəsində, istehsal həcminin artması ilə yanaşı, idxaldan asılılığın aradan qaldırılmasına da müsbət təsir göstərib. 2009-cu ildə muxtar respublikada meyvə bağlarının ümumi əkin sahəsi 3727,3 hektar olub ki, bu da 1995-ci illə müqayisədə 3,6 dəfə çoxdur. 2009-2013-cü illərdə məlum Dövlət proqramının icrası dövründə muxtar respublikanın meyvə bağlarının əkin sahəsi 600,3 hektar genişləndirilərək 4327,6 hektar olub. 2011-ci ildə 4107,2 hektar olan meyvə bağlarının sahəsi 546,3 hektar artırılaraq 2015-ci ildə 4653,5 hektar təşkil edib. 2014-2018-ci illərdə bağların sahəsi 672,7 hektar artırılaraq 5000,3 hektara çatdırılıb. 2018-ci ildə məhsuldarlıq 2014-cü illə müqayisədə 32 faiz artıb. 2019-cu ildə meyvə bağlarının ümumi sahəsi 1995-ci ildəkindən 4,7 dəfə çox artaraq 5156,5 hektara çatıb ki, bunun da 89,2 faizi barverən yaşda olub.

Müqayisə etsək, görərik ki, 1996-cı ildə 1991-ci ilə nisbətən muxtar respublikada meyvə istehsalı 8 dəfə, məhsuldarlıq isə 12,2 dəfə artıb. 2014-cü ildə ümumi yığım 1996-cı illə müqayisədə 1,92 dəfə üstündür. 2015-ci ildə istehsal edilən məhsul 2014-cü illə müqayisədə 41 faiz artıb. Məhsul tədarükü üzrə ən yüksək göstərici 2018-ci ildə 55949 ton olub ki, bu da 1996-cı illə müqayisədə 3 dəfə çoxdur.

Vurğulamaq lazımdır ki, 2002-ci il avqustun 7-də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması ilə Naxçıvanda meyvəçiliyin elmi əsaslarla, sistemli şəkildə tədqiq edilməsinin əsası qoyulub. Tədqiqatların istiqaməti kimi keyfiyyətli, məhsuldar, xəstəliklərə davamlı sortların öyrənilməsi və seleksiya işlərində istifadə edilərək daim təkmilləşdirilməsi qeyd edilib. Unudulmaqda olan, "Naxçıvan sortları" adı ilə məşhurlaşmış onlarla meyvə sortlarının qorunması və öyrənilməsi məqsədilə bölmənin Bioresurslar İnstitutunda meyvə genofondu bağı yaradılıb. Genofond bağında meyvə bitkiləri planauyğun olaraq əkilib, meyvəçilikdə qəbul edilmiş müasir metodikalar əsasında elmi araşdırmalar yerinə yetirilib. Fəaliyyəti dövründə AMEA Naxçıvan Bölməsində muxtar respublikada becərilən çəyirdəkli, tumlu, giləmeyvəli və digər meyvə sortlarına dair tədqiqatlar aparılıb, onların sistematik tərkibi müəyyənləşdirilib, genofondu qiymətləndirilib, zərərvericiləri öyrənilib. Qısa müddət ərzində yabanı alma və armudun növ və variasiyalarının təhlili verilib və Azərbaycan florası üçün iki növü ilk dəfə təqdim edilib, ərazidə becərilən üzüm, alma, armud, gilas, albalı genofondunun kompleks şəkildə tədqiqinə nail olunub. İndiyədək 178 üzüm, 104 alma, 63 gilas və 24 albalı sort və formasının genofondu müəyyənləşdirilib, bioloji və pomoloji göstəriciləri tədqiq edilib. Meyvəçilik sahəsində kadr hazırlığına da xüsusi diqqət yetirilib, bir çox meyvələrə dair monoqrafiyalar yazılıb, müasir becərmə üsullarının təbliği istiqamətində kütləvi informasiya vasitələrində maarifləndirmə işləri aparılıb.



Ümumdünya Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı ekspertlərinin qiymətləndirmələrinə görə, dünya ərzaq təhlükəsizliyinin vəziyyətinin iki mühüm göstəricisindən biri adambaşına düşən istehsal həcmidir. 2012-2015-ci illəri əhatə edən müvafiq Dövlət proqramında 2015-ci ilə qədər əhalinin müxtəlif meyvə məhsullarına olan tələbatının adambaşına 88,5 kiloqrama çatdırılması nəzərdə tutulsa da, bu vəzifə muxtar respublikada uğurla yerinə yetirilərək 115,6 kiloqram təşkil edib. Belə ki, Naxçıvanda bir nəfər üçün tələbat 2018-ci ildə 122,7 kiloqram qeyd edilərək ən yüksək olub. Muxtar respublikanın hər bir nəfəri üçün il ərzində istehsal edilən meyvə 2019-cu ildə 1996-cı illə müqayisədə 2,1 dəfə çox olub.

Naxçıvan Muxtar Respublikasında uğurla icra olunmuş 2012-2015 və 2016-2020-ci illəri əhatə edən meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət proqramları kənd təsərrüfatının, o cümlədən meyvəçiliyin inkişafında olduqca böyük əhəmiyyətə malikdir. Bu proqramlarda muxtar respublikada yüksəkkeyfiyyətli və məhsuldar meyvə bağlarının salınması, unudulmaqda olan meyvə sortlarının bərpası, ərazilər üzrə müvafiq meyvə sortlarının əkininə dair tövsiyələrin hazırlanması, əhalinin fasiləsiz olaraq meyvə ilə təmin edilməsi məqsədilə əlaqəli sahələrin inkişafının dəstəklənməsi, meyvə məhsullarının ixracının stimullaşdırılması öz əksini tapıb. Hər iki proqramın icrası Naxçıvanda illərdən bəri təbii şəraitin, uzun müddət becərilmə və introduksiya olunmuş sortların hesabına xalq seleksiyası nəticəsində formalaşmış yüksək məhsuldarlığa malik yerli meyvə sortlarının bərpasına və seleksiya işlərinə əhəmiyyətli dərəcədə təsir göstərib.

Proqramların icrası əsasında Naxçıvançay, Əlincəçay və Gilançay vadilərində, Arazboyu düzənlik ərazilərdə meyvə və üzüm bağları da salınıb. Həmçinin Şərur rayonunun Kərimbəyli və Çərçiboğan kəndlərində süfrə sortlarından ibarət yeni üzüm bağı salınıb, Babək rayonunun Nehrəm kəndində mövcud üzüm bağı genişləndirilərək 150 hektara çatdırılıb. Kəngərli rayonu ərazisində püstə, rayonun Xok kəndi ərazisində yeni badam bağı salınıb. Muxtar respublikada barverən meyvə bağlarının ümumi sahəsi 2012-ci ildəki 3143,4 hektardan artırılaraq 2015-ci ildə 4013,4 hektara çatdırılıb. Ümumiyyətlə, 1996-cı ilə nisbətən 2019-cu ildə Naxçıvan Muxtar Respublikasında meyvə bağlarının ümumi sahəsi 4,6 dəfə, barverən meyvə bağlarının sahəsi 4,9 dəfə, meyvə istehsalı 71,6 dəfə, hektardan məhsuldarlıq 14,5 dəfədən çox artıb.

2021-ci il martın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Yeni proqramın qəbulu onu göstərir ki, muxtar respublikada meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsi mühüm istiqamətlərdən sayılır. Bunu da qeyd edək ki, bu gün muxtar respublikada meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsi üçün mühüm baza formalaşdırılıb. Belə ki, əhalinin bu məhsullara olan tələbatını ilboyu ödəmək üçün hazırda muxtar respublikada tutumu 19 min 390 ton olan 42 soyuducu anbar, 139 min 555 kvadratmetr sahədə isə 31 müasir istixana kompleksi fəaliyyət göstərir. Bu isə tədarük olunan məhsulların həm daxili bazara çıxarılması, həm də ixracı üçün yeni imkanlar açır. İnanırıq ki, proqramın icrası ilə bağlı qarşıdakı illərdə görüləcək işlər əvvəlki dövrlərdə qazanılmış nailiyyətlərin davamlılığının təmin olunmasına öz töhfəsini verəcək. Eyni zamanda bu sahədə həyata keçirilən tədbirlər muxtar respublikanın ixrac imkanlarını daha da genişləndirəcək.


**Orxan BAĞIROV**

*AMEA Naxçıvan Bölməsinin əməkdaşı, aqrar elmlər üzrə fəlsəfə doktoru*

Qars müqaviləsi – 100

# Naxçıvanın muxtariyyət statusuna hüquqi təminat verən tarixi sənəd

***XI Qırmızı ordu hissələrinin 1920-ci il aprel istilasından sonra daşnaklar baş vermiş yeni situasiyadan yararlanaraq, məkrli, xain niyyətlərinin davamı kimi Azərbaycanın Naxçıvan və başqa bölgələrinə bolşeviklərlə birgə növbəti hərbi təcavüz etdilər. 1920-ci il avqust ayının 10-da Rusiya ilə Ermənistan Respublikası arasında bağlanmış altı maddəlik sazişlə Azərbaycanın Şərur-Dərələyəz bölgəsinin Ermənistana məxsusluğu "təsdiq edilmiş", Rusiya Xarici İşlər naziri G.Çiçerin tərəfindən hazırlanmış məkrli plana əsasən Zəngəzur, Naxçıvan və Qarabağ bölgələri isə "mübahisəli ərazilər" hesab olunmuşdu. Rusiyanın rəhbəri V.Leninin baş planında Bakını nəyin bahasına olursa-olsun işğal etmək, neft milyonlarına sahib olmaq və Azərbaycanın digər ərazilərini Ermənistanla bölüşdürmək, pay-püşk etmək nəzərdə tutulurdu...***

Naxçıvana gəlincə, ermənilərin məkrli planlarına baxmayaraq, burada siyasi-hərbi vəziyyət nisbətən fərqli idi. 1920-ci ilin mayından Türkiyə Naxçıvanın siyasi, coğrafi və hərbi durumunu, Naxçıvanın erməni təcavüzündən qorunması zəruriliyini nəzərə alaraq burada Veysəl paşanın başçılıq etdiyi azsaylı qoşun hissələrini yerləşdirmişdi. Yeri gəlmişkən tarixi mənbələrin verdiyi məlumatlara görə çox sayda Naxçıvan əhalisi ruh yüksəkliyi ilə orduya könüllü yazılırdı.

1920-ci ilin iyul ayında Qırmızı ordu hissələri Naxçıvana daxil olmuş və iyulun 28-də Naxçıvan SSR yaradılmışdı. Naxçıvan İnqilab Komitəsi Naxçıvanı Azərbaycanın ayrılmaz tərkib hissəsi elan etdi.

1920-ci il noyabr ayının 29-da Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra Rusiyanın mübahisəli hesab etdiyi ərazilər uğrunda mübarizə yeni mərhələyə daxil oldu. Rusiya Kommunist Bolşeviklər Partiyasının Mərkəzi Komitəsinin Qafqaz Bürosunun rəhbəri S.Orconikidzenin diktəsi altında bəyanat hazırlandı. Bəyanatda deyilirdi: "Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd yoxdur. Zəngəzur və Naxçıvan qəzalarının ərazisi Sovet Ermənistanının bölünməz ərazisidir, Dağlıq Qarabağın əməkçi kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir. Sovet Azərbaycanının qoşunları Zəngəzur ərazisindən çıxarılır". Fəlakət burasında idi ki, bu bəyanat məqsədyönlü şəkildə Azərbaycan İnqilab Komitəsinin adından verilmişdi.

Bəyanat Naxçıvan əhalisinin kəskin etirazları ilə qarşılandı. Gərginliyi azaltmaq üçün bölgəyə göndərilən ədliyyə komissarı Behbud ağa Şahtaxtinski 15 dekabr 1920-ci ildə Naxçıvan camaatı qarşısında demişdi: *"Azərbaycan hökuməti sizi torpağınızla birlikdə Ermənistana satıb. Siz torpağınızla birlikdə öz müstəqilliyinizi saxlamaq istəyirsinizsə, burada arxalana biləcəyiniz yeganə qüvvə Türkiyə qoşunlarıdır. Xalq bu qoşunların ətrafında sıx birləşməlidir. Sizin müstəqilliyinizi və torpağınızı yalnız onlar qoruyacaq və sizi ağır fəlakətdən xilas edəcəklər".*

Rusiyanın Naxçıvan bölgəsini "mübahisəli ərazilər" siyahısına daxil etməsi ciddi təhlükədən xəbər verirdi. Bu təhlükənin qarşısının alınması üçün güclü müqavimətə ehtiyac var idi. Türk ordusunun varlığı və könüllü Naxçıvan ordusunun yaradılması erməni daşnaklarının əl-qolunu bağlayırdı. Türkiyə dövləti və Naxçıvan ordusu Naxçıvanın Azərbaycanın tərkibində qalmasının siyasi və hərbi qarantı idi. 1921-ci ilin yanvarında Türkiyə, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə yerli əhali içərisində sorğu keçirilmişdir. Naxçıvan əhalisinin 90 faizi Azərbaycan SSR-in tərkibində qalmaq istədiyini bildirmişdi.

Naxçıvanın Azərbaycanın tərkibində saxlanılmasında Sovet Rusiyası ilə Türkiyə arasında 1921-ci il mart ayının 16-da bağlanmış Moskva müqaviləsi mühüm rol oynadı. 16 maddədən və 3 əlavədən ibarət olan Moskva müqaviləsinin 3-cü maddəsi və birinci əlavəsi Naxçıvana aid idi. Müqavilə ilə hər iki tərəf əlavədə göstərilən sərhədlər daxilində Naxçıvanın Azərbaycanın tərkib hissəsi olduğunu təsdiqlədi. Ən önəmlisi isə bu idi ki, tərəflər Naxçıvanın heç bir üçüncü dövlətə güzəştə gedilməməsi şərtilə muxtar ərazi təşkil etməsinə razı olduğunu bildirdi. Moskva konfransında Naxçıvan məsələsinin ədalətli həlli böyük qələbə idi.

Lakin Ermənistan Naxçıvana qarşı təxribatlar törətməyə sonralar da davam etdi. Sovet Rusiyası isə bütün bunlara, nəinki göz yumurdu, üstəlik, zaman-zaman Naxçıvan torpaqlarını ermənilərə hədiyyə etməkdən çəkinmirdi.

Ermənilər Moskva müqaviləsindən narazı olduqlarını gizlətmir, bunun heyfini çıxmağa çalışır və yeni sərfəli müqavilə bağlanmasına cəhd edirdilər. Onların başlıca məqsədləri Türkiyəni bu müqavilədən tərəf kimi uzaqlaşdırmaq və asanlıqla istədiklərinə nail olmaqdan ibarət idi.

1921-ci il oktyabr ayının 13-də Rusiyanın iştirakı ilə Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan arasında Qars müqaviləsi imzalandı. Başqa sözlə, Moskva müqaviləsindən fərqli olaraq Qars müqaviləsində Cənubi Qafqaz respublikaları da iştirak etdilər. Bu fakt çox önəmlidir, bu uğur Türkiyənin diplomatik qələbəsi idi.

Qars müqaviləsində tərəflərdən Azərbaycan Sovet Respublikasının hökumətini xalq dövlət nəzarəti komissarı kimi Behbud ağa Şahtaxtinski, Türkiyə Böyük Millət Məclisi hökuməti Kazım Qarabəkir Paşa, Böyük Millət Məclisində Ədirnədən millət vəkili, Şərq Cəbhəsi komandanı Vəli bəy, Böyük Millət Məclisində Burdurdan millət vəkili Muxtar bəy, İctimai İşlər Stats-Sekretarının keçmiş müavini Məmduh Şövkət bəy, Türkiyənin Azərbaycanda səlahiyyətli nümayəndəsi, Rusiya Sosialist Federativ Sovet Respublikasının hökumətini isə Yakov Qanetski, Latviyadakı səlahiyyətli nümayəndə təmsil etmişlər.

Müqavilədə tərəflərin hər birinin ayrı-ayrı iştirakçılarının say tərkibi, peşə hazırlığına diqqət etsək, Türkiyənin bu müqaviləyə nə qədər həssas yanaşdığının şahidi olarıq. Müvəkkillər qanuni formada tərtib edilmiş səlahiyyətlərin mübadiləsindən sonra aşağıdakılar barədə razılığa gəldilər.

Müqavilənin ən böyük tarixi əhəmiyyəti Naxçıvanın statusunun müəyyən olunması və onun Azərbaycanın himayəsi altında "... muxtar ərazi yaratma" hüququnun tanınması idi: "Maddə 5. Türkiyə hökuməti və Sovet Ermənistanı və Azərbaycan hökumətləri razılığa gəlirlər ki, Naxçıvan vilayəti bu müqavilənin 3-cü əlavəsində müəyyən edilən sərhədlərdə Azərbaycanın himayəsi altında muxtar ərazi yaradır".

Əlavə 3-də göstərilirdi ki, Naxçıvanın ərazisi Urmiya kəndi – oradan düz xətlə Arazdəyən stansiyasına (onu Ermənistan Sovet Sosialist Respublikasına saxlamaqla) – sonra düz xətlə 3142 qərbində Daşburun dağına – Daşburun dağının şərq ayrıcı xətti (4108) – Cəhənnəm dərəsi çayından "bulaq" yazısının cənubu – Bağırsaq dağının gədik xəttilə (6607 və ya 6587) və oradan əvvəlki İrəvan dairəsinin və Şərur-Dərələyəz qəzasının inzibati sərhədi ilə gedir – 6629 yüksəkliyi – Kömürlü dağı (6839 və ya 6930) – oradan 3080 yüksəkliyi – Sayat dağı (7868 – Qurdqulaq kəndi) Həməsür dağı (8160) – 8022 yüksəkliyi – Kükü dağ (10282) və əvvəlki Naxçıvan dairəsinin inzibati sərhədinin şərqindən keçir. Tərəflərin imzaladığı müqavilə Ümumittifaq MİK tərəfindən 16 mart 1922-ci ildə ratifikasiya olunmuşdur.

Bu müqavilədə müəyyən olunmuş sərhədlərə Ermənistan razılıq versə də, müqavilənin mürəkkəbi qurumamış öz havadarlarının köməyi ilə Naxçıvan torpaqlarının bir hissəsini ələ keçirdi.

Qars müqaviləsinin əhəmiyyətinə gəldikdə bu, təkcə Naxçıvanın statusu və sərhədləri məsələsi ilə məhdudlaşmır. Müqavilənin 9-cu maddəsində göstərilir ki, boğazların açılması və bütün xalqların ticarət münasibətləri üçün onlardan sərbəst keçidin təmin edilməsindən ötrü Türkiyə və Gürcüstan Qara dənizin və boğazların beynəlxalq statusunun qəti olaraq müəyyənləşdirilməsini sahil ölkələrinin nümayəndələrindən ibarət xüsusi konfransa bu şərtlə verməyə razılaşırlar ki, onun çıxardığı qərarlar Türkiyənin tam suverenliyinə və təhlükəsizliyinə xələl gətirməsin.

Göründüyü kimi, Qars müqaviləsi Türkiyə siyasətçiləri, diplomatları, hərbçiləri tərəfindən yüksək peşəkarlıqla hazırlanmışdır. Naxçıvanla bağlı maddənin hazırlanması və qəbul edilməsində Azərbaycan Sovet Respublikası hökumətinin xalq dövlət nəzarəti komissarı Behbud ağa Şahtaxtinskinin əvəzsiz rolu olmuşdur. Lakin unutmaq olmaz ki, Rusiya, Ermənistan və Gürcüstanın belə bir maddənin qəbul edilməsinə razılaşmasında Türkiyə tərəfdən olan nümayəndələrin dəstəyi müstəsna rol oynamışdır.

20-ci maddə isə müqavilənin ratifikasiya edilməsini nəzərdə tutur və 6, 14, 15, 16, 18 və 19-cu maddələr müqavilə imzalandıqdan dərhal sonra, digər maddələr isə ratifikasiya olunduqdan sonra qüvvəyə minməli idi.

20 maddədən və 3 əlavədən ibarət olan Qars müqaviləsinin beşinci maddəsində Ermənistan Naxçıvanın Azərbaycanın himayəsinə verildiyini, Azərbaycan isə bu himayəni qəbul etdiyini təsdiq edirdi. Bu müqavilənin ən önəmli cəhətlərindən biri "Tərəflərdən hər hansı biri prosesdə iştirak etməsə, onda müqavilə ləğv oluna bilməz..." qərarının təsbit edilməsidir. Bu maddə Vladimir Jirinovski kimi bəzi "siyasətçilərin" Qars müqaviləsinin ləğv edilməsi barədə əsassız iddialarının keçərsizliyini təmin edir.

Müqavilədə Naxçıvanın muxtar ərazi kimi dəqiq sərhədləri də müəyyənləşdirilmişdi. Uzun sürən çəkişmə və müzakirələrdən sonra, nəhayət, 1924-cü il fevral ayının 9-da Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Muxtar Sovet Sosialist Respublikası (MSSR) yaradılması haqqında dekret imzaladı və Naxçıvan MSSR-in yaradılması üçün hüquqi zəmin yarandı.

Muxtar respublikanın ərazisi 5988,5 kvadratkilometr müəyyən olunmuşdu. 1921-ci ildə Sovet Rusiyası tərəfindən Azərbaycanın Zəngəzur bölgəsinin böyük hissəsinin Ermənistana verilməsi ilə Naxçıvan Azərbaycanın digər torpaqlarından ayrı düşdü. 1929-1930-cu illərdə Zəngilana və Naxçıvanın Ordubad rayonuna məxsus xeyli ərazinin Ermənistana güzəştə gedilməsi nəticəsində muxtar respublikanın ümumi ərazisi azalaraq 5,5 min kvadratkilometr oldu.

Qars müqaviləsi Türkiyə üçün də çox önəmli idi. 1922-ci il 1 mart tarixdə Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk demişdi ki, bizim Şərqdəki real vəziyyətimiz Qars müqaviləsilə hüquqi forma almışdır. "Erməni məsələsi" də özünün ən düzgün həllini Qars müqaviləsində tapmışdır.

Qars müqaviləsindən bu günədək Naxçıvan bütün yönləri ilə məxsus olduğu Azərbaycanın tərkibindədir. Sadəcə, muxtar respublikanın adı zaman-zaman öz siyasi şəklini dəyişmişdir. Naxçıvan MSSR Ali Sovetinin ümummilli lider Heydər Əliyevin sədrliyi ilə keçirilən 17 noyabr 1990-cı il tarixli sessiyasında məhz ulu öndərin təşəbbüsü ilə Naxçıvan MSSR-in adından "sovet sosialist" sözləri çıxarılmış, muxtar respublikanın yeni adı qəbul olunmuşdur.

Ermənilərin fitvası ilə Qars müqaviləsinin taleyi dəfələrlə təhlükə altına atılmışdır. Məsələn, 1945-ci ilin iyununda SSRİ Xarici İşlər naziri V.Molotov Moskvadakı Türkiyə səfirinə Türkiyəyə verilmiş ərazilərin geri qaytarılması tələbi ilə müraciət etdi. İngiltərənin baş naziri U.Çörçill bu plana qarşı sərt reaksiya verdi. 2016-cı ildə erməni lobbisinin təhriki ilə bəzi rus deputatları müqavilənin ləğvi ilə bağlı əsassız tələblər irəli sürmüşdülər.

Onu da qeyd etmək yerinə düşər ki, Naxçıvan Muxtar Respublikası yaradılarkən Naxçıvan və Türkiyə arasında sərhəd yox idi.1930-cu illərdə Türkiyə İranla torpaq mübadiləsi edərək Azərbaycana 11 kilometrlik sərhəd xətti yaratdı. Beləliklə, 1921-ci ildə bağlanmış Qars müqaviləsi ortaq Türkiyə-Azərbaycan sərhədinin yaradılmasını da zəruri etdi. Dahi siyasətçi Mustafa Kamal Atatürk yaxşı bilirdi ki, əgər Türkiyə ilə Naxçıvan arasında quru sərhəd olmasa, Ermənistan havadarlarının köməyi ilə nə zamansa bu müqaviləyə belə, əhəmiyyət vermədən Naxçıvanı işğal edə bilər.

Qars müqaviləsinin tarixi əhəmiyyətini ümummilli liderimiz Heydər Əliyev yüksək qiymətləndirmişdir: ***"Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan sənəddir".***

2020-ci il noyabr ayının 10-da Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsinin Böyük Qələbə ilə başa çatması muxtariyyətini ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində tarixi nailiyyət kimi qoruyub saxlayan qədim diyarımız Naxçıvanın iqtisadi inkişafı üçün də geniş perspektivlər açır.

2021-ci il fevral ayının 8-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Naxçıvanın muxtariyyət statusuna təminat verən hüquqi sənəd olan Qars müqaviləsinin 100 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planını təsdiq edib. Bu mühüm dövlət sənədi dövlətçilik tarixinin təbliğinə, Qars müqaviləsinin Naxçıvan tarixində yeri və rolu kimi məsələlərə nə qədər önəm verildiyini bir daha təsdiq edir.

**Əziz NOVRUZLU**
*tarix elmləri doktoru, "Naxçıvan" Universitetinin müəllimi*

# Pedaqoji və ixtisas təcrübələrinin başlanğıc konfransı keçirilib



***Naxçıvan Müəllimlər İnstitutunda tədris planlarına uyğun olaraq Təsviri incəsənət müəllimliyi, Təhsildə sosial-psixoloji xidmət ixtisaslarının pedaqoji, Kitabxanaçılıq və informasiya fəaliyyəti ixtisasının isə ixtisas təcrübələrinin başlanğıc konfransı keçirilib.***

İnstitutun prorektoru Çapay Quliyev konfransı açaraq qeyd edib ki, ixtisaslar üzrə tədris planına uyğun olaraq Təsviri incəsənət müəllimliyi və Təhsildə sosial-psixoloji xidmət ixtisası tələbələri Naxçıvan şəhərində fəaliyyət göstərən orta ümumtəhsil məktəblərində 6 həftə olmaqla, Kitabxanaçılıq və informasiya fəaliyyəti ixtisasının tələbələri isə Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublikası Kitabxanasında 7 həftə olmaqla, ixtisas təcrübələri keçəcəklər. Təcrübələrdə, ümumilikdə, 49 tələbə iştirak edəcək. Prorektor vurğulayıb ki, tələbələrin nəzəri biliklərinin tətbiqində və ixtisaslı kadr kimi formalaşmasında keçdikləri pedaqoji təcrübə mühüm əhəmiyyət kəsb edir. Nəticə bir sıra amillərlə yanaşı, ilk növbədə, bu prosesin necə təşkil olunmasından, maraqlı tərəflərin və tələbələrin məsuliyyətindən asılıdır.

Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini Ovni Muradov müəllim kadrlarının hazırlanması üçün muxtar respublikada görülən işlərdən danışıb. Vurğulanıb ki, təhsilin bütün sahələri dövlət qayğısı ilə əhatə olunub, müasir tələblərə cavab verən təhsil infrastrukturunun yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirilib, yeni – STEAM təlim metodunun tətbiqi üçün kabinələr yaradılıb, lazımi avadanlıqlarla təchiz olunub. Tələbələrin həyatında mühüm və məsuliyyətli mərhələ olan pedaqoji təcrübənin düzgün təşkili üçün təhsil müəssisələrində hərtərəfli şərait formalaşdırılıb. M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının müdiri Tamella Əsgərova diqqətə çatdırıb ki, Kitabxanaçılıq və informasiya fəaliyyəti ixtisası tələbələrinin ixtisas təcrübələrində iştirakı qazandıqları nəzəri biliklərin təcrübi baxımdan tətbiqində xüsusi bir mərhələni təşkil edir və bunun üçün bütün lazımi işlər görülüb.

Sonra institutun Tədris şöbəsinin müdiri Əhruz Mahmudovanın, Təbiət və incəsənət fakültəsinin dekanı Rövşən Vəliyevin, İncəsənət kafedrasının müdiri Həbibə Allahverdiyevanın, institutun pedaqoji təcrübə rəhbəri Təranə Əliyevanın çıxışları dinlənilib. Qeyd olunub ki, insan kapitalına böyük önəm verilən muxtar respublikamızda təhsilin keyfiyyətinin yüksəldilməsi, onun məzmununa və təşkilinə qloballaşma və informasiyalaşdırma tələbləri baxımından yanaşılması, yeni ideyaların, metodların və nəzəriyyələrin yaradılması təhsilin inkişafını sürətləndirib, daha da səylə çalışmağa şərait yaradıb.

Sonda pedaqoji təcrübəyə həsr edilmiş sərgiyə baxış olub.

*Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti*

Təhsil millətin gələcəyidir

# Dövlət qayğısı bəhrələrini göstərib



*Bu gün muxtar respublikamız sosial-iqtisadi inkişafın ən yüksək dövrünü yaşayır. Müasirlik donuna bürünmüş qədim Naxçıvana gələn qonaqlar da bunu görür, təəccüblərini gizlətmirlər. Diyarımızda həyata keçirilən quruculuq tədbirləri və bu tədbirlər hesabına qazandığımız bütün nailiyyətlər isə ulu öndərimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin bəhrələridir. Bu tərəqqi yurdumuzun hər bir bölgəsində aydın hiss olunur. Bütün yaşayış məntəqələrində təhsil, səhiyyə, mədəniyyət müəssisələri, inzibati binalar tikilib istifadəyə verilir, yollar yenidən qurulur, yeni iş yerləri açılır. Sevindirici haldır ki, bu tədbirlər ucqar dağ və sərhəd kəndlərində də həyata keçirilir. Əhalinin rifahının yaxşılaşdırılmasına xidmət edən belə tədbirlər Culfa rayonunu da əhatə edib. Rayonda həyata keçirilən kompleks quruculuq tədbirlərini göz önünə gətirsək, günün reallığını bir daha təsdiq etmiş olarıq. Qızılca kəndi də bu sıradadır.*

2015-ci il noyabr ayının 10-da abadlaşdırılan kəndin avtomobil yolu rayon mərkəzinə və Naxçıvan şəhərinə gediş-gəlişi asanlaşdırıb. Həmçinin kənddə rabitə, elektrik xətləri yenilənib, su təminatı yaxşılaşdırılıb. Həmin il məktəb binası, kənd və xidmət mərkəzləri istifadəyə verilib. Həyata keçirilən belə tədbirlər isə kənd sakinlərinin yurda, torpağa bağlılığını daha da artırıb.



Sakinlərin rifahı üçün yaradılan şərait kənd həyatının bütün sahələrinin, o cümlədən təhsilin də inkişafını təmin edib. Məktəbdə tədrisin müasir tələblərə uyğun qurulması üçün bütün tədbirlər görülüb. Bu da pedaqoji kollektivin məsuliyyətini artırıb. Müəllimlər yaradılan şəraitdən istifadə edərək ölkəmizə, xalqımıza layiqli vətəndaşlar yetişdirməyə səy göstəririlər. Məktəbin açılış mərasimində Ali Məclis Sədrinin verdiyi tövsiyələr pedaqoji kollektivin fəaliyyət istiqamətinə çevrilib: ***“Məktəbin qarşısında duran əsas vəzifə yaxşı bilik vermək, gənclərin marağını nəzərə alaraq müəyyən bir peşəyə istiqamətləndirmək və gələcəyin əsl vətəndaşını yetişdirməkdən ibarətdir. Hər bir məktəbin fəaliyyəti onun yetişdirdiyi təhsilli və vətənpərvər gənclərlə ölçülür. Əgər məktəbdə təhsil alan gənc vətənpərvərdirsə, bir peşəyə meyillidirsə və öz gələcəyini, ölkəsinin gələcəyini düşünürsə, deməli, o məktəbin fəaliyyəti hədər getməmiş, məktəbdə təlim-tədris və tərbiyə işi düzgün qurulmuşdur. Qızılca kənd tam orta məktəbinin nailiyyətləri onu deməyə əsas verir ki, məktəbdə tələbkarlıq və nizam-intizam vardır. Bu prinsip davam etdirilməli, nailiyyətlər daha da artırılmalıdır”.***





Hərtərəfli və davamlı qayğının nəticəsidir ki, 2019-2020-ci tədris ilində Qızılca kənd tam orta məktəbini bitirən məzunların hamısı – 100 faiz nəticə göstərərək, ali məktəb tələbəsi adını qazanıb. Onlardan – Rəvan Hüseynli Bakı Mülki Aviasiya Akademiyasına, İnci Nəzərli isə “Naxçıvan” Universitetinin İngilis dili müəllimliyi ixtisasına qəbul olub. 2021-ci il mart ayının 4-də keçirilən muxtar respublika məktəblilərinin dram müsabiqəsinin rayon turunda “Müsibəti-Fəxrəddin” faciəsini səhnələşdirməklə yüksək istedad nümayiş etdirən şagirdlərimiz I yerə layiq görülüblər.

Hazırda ölkəmizdə sağlam ruhlu gənclik yetişir. Bu gənclik həyatda müstəqil hərəkət etməyi, həyatın dolaylarından mətanətlə keçməyi bacaran qüdrətli bir gənclikdir. Azərbaycan gəncliyi ulu babalarımızın qəhrəmanlıq ənənələrini bu gün də şərəflə davam etdirir. Hər bir Azərbaycan gənci yaxşı bilir ki, Vətənin şərəfi onun şərəfidir. Ona görə də bu şərəfi qorumaq, onu hər zaman uca tutmaq lazımdır. Məktəbimizdə də vətənpərvərlik tərbiyəsinin formalaşdırılmasına ciddi önəm verilir, şərəfli tariximizin qəhrəmanlıqla dolu olan səhifələrinin öyrədilməsi diqqət mərkəzində saxlanılır. 2020-ci il sentyabrın 27-dən düşmənin növbəti təxribatına əks-həmlə ilə cavab verən rəşadətli Azərbaycan Ordusunun apardığı 44 günlük Vətən müharibəsi dövründə Qızılca məktəbinin yetirmələri də işğal altında qalmış torpaqlarımızın azad olunmasında əsl qəhrəmanlıq nümunələri göstərib, hərbi tariximizə öz izlərini yazıblar. Vətən müharibəsi qazisi, 27 yaşlı qəhrəman eloğlumuz Cavid Behbudov xüsusi təyinatlı qüvvələrin tərkibində qəhrəmancasına döyüşüb. O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Cəbrayılın, Füzulinin azad olunması uğrunda medallarla təltif olunub, “Vətən Müharibəsi Qəhrəmanı” adına layiq görülüb. Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, snayperçi Məhəmməd Əhmədov “Şuşanın azad olunması uğrunda”, “Cəsur döyüşçü” medalları ilə təltif edilib. Müddətdən artıq həqiqi xidmət hərbi qulluqçusu Kənan Rzayev isə Vətən savaşında torpaqlarımızın bütövlüyü uğrunda öz canından keçərək şəhidlik zirvəsinə yüksəlib.

Dərslərdə, sinifdənxaric və məktəbdənkənar tədbirlərdə onların keçdiyi şərəfli döyüş və ömür yolları şagirdlərə çatdırılır. Bütün bunlar məktəblilərdə vətənpərvərlik tərbiyəsinin formalaşmasında mühüm rol oynamaqla, dağlar qoynunda yerləşən Qızılcaya, onun zəhmətkeş insanlarına göstərilən qayğıya əməli işlə cavab vermək əzmidir.

**Namiq NƏZƏROV**
***Culfa rayonunun Qızılca kənd tam orta məktəbinin direktoru***

# “Mütaliə aylığı”na start verilib

Dünən Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən “Şagirdlərin formalaşdırılmasında mütaliənin rolu və əhəmiyyəti” mövzusunda tədbir keçirilib.



Tədbirdə Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində təhsil müəssisələrinin infrastrukturu yenilənmiş, şagirdlərin təhsil alması üçün zəruri şərait yaradılmışdır. Bununla yanaşı, təhsil müəssisələrinin kitabxanaları da zəruri avadanlıqlarla təchiz olunmuş, fondu zənginləşdirilmiş, kompüterlə təminatı istiqamətində zəruri tədbirlər görülmüş, kitabxanalar 3 milyona yaxın dərslik, 600 mindən çox latın qrafikası ilə çap olunmuş bədii ədəbiyyatla təmin edilmişdir.

Nazir vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə tariximiz, mədəniyyətimiz və milli kimliyimiz haqqında dolğun məlumat verən, gənc nəslin həyat yolunun müəyyənləşdirilməsinə və dünyagörüşünün artırılmasına xidmət edən “Oxunması zəruri olan kitabların Siyahısı” təsdiq edilib, məktəblərdə oxunması zəruri olan kitablardan ibarət guşə yaradılıb.

Qeyd olunub ki, şagirdlərdə mütaliəyə marağı artırmaq, onlarda mütaliə mədəniyyətinin formalaşdırılması təhsil müəssisələrinin qarşısında duran əsas vəzifələrdəndir. Bu məqsədlə ümumtəhsil məktəblərində 2019-cu ildən keçirilən “Mütaliə aylığı” çərçivəsində şagirdlərdə mütaliə mədəniyyətini formalaşdıran, onları mütaliəyə həvəsləndirən silsilə tədbirlər keçiriləcəkdir. Həmçinin ay daxilində şagirdlər tərəfindən Azərbaycan yazıçılarının dram əsərlərindən parçalar səhnələşdiriləcək və dram müsabiqəsi keçiriləcəkdir.

Sonra çıxışlar olub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

Əfsanəyə dönən ömürlər

# Şəhidim – qəhrəmanlıq tarixim



Şəhidlik zirvəsinə – ən ali məqama ucalmaq Allahın çox sevdiyi bəndəsinə qismət olur. Bəlkə də, Ulu Yaradan ömürboyu öz halal süfrəsi ilə öyünən Fərman kişinin övladına da bu şərəfli ölümü məhz buna görə bəxş etdi...

Ordumuzun düşmənə əks-hücumunun gücləndiyi bir vaxtda Babək rayonunun Şıxmahmud kəndinə ildırım sürətilə bir xəbər çatdı: şəhidin var, Şıxmahmud! Bütün kənd sakinləri Fərman kişinin həyətinə toplaşdı. Göz yaşlarına boğulan atanın dilindən qeyri-ixtiyari bu sözlər qopdu: – “Halal çörəyim sənə halal olsun, oğul, başımızın tacı oldun!”

Şəhid leytenant Əliyev Fərmin Fərman oğlu 20 mart 1996-cı ildə Babək rayonunun Şıxmahmud kəndində anadan olmuşdu. Şıxmahmud kənd tam orta məktəbinin 9-cu sinfini bitirdikdən sonra – 2011-ci ildən Heydər Əliyev adına Hərbi Liseydə təhsilini davam etdirmişdi.

2014-cü ildə liseyi bitirən Fərmin 2014-2018-ci illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində Xüsusi təyinatlı texnika və sistemlər ixtisasına yiyələnmişdi. Akademiyanı bitirdikdən sonra Tərtər rayonundakı hərbi hissədə hərbi qulluğa başlamışdı. O, burada çevikliyi və bacarığı ilə fərqlənirdi. Bir qədər sonra Mingəçevir şəhərinə xüsusi təyinatlı olaraq göndərildi.

Sentyabrın 27-də başlayan müharibənin ilk günündən isə Fərminin taboru Ağdərəyə göndərilir. Buradakı döyüşlərdə böyük şücaət göstərir.

Fərmin öz əsgərlərini “balacalar” adlandırır, onlara xüsusi qayğı göstərir, istər maddi, istərsə də mənəvi cəhətdən onlara dayaq dururdu. Özü dediyi kimi, əsgərlər rahat olanda o da rahat olurdu. Bunları Fərminin döyüş yoldaşları deyir.

Fərmin böyük ürək sahibi idi. Çöhrəsindən təbəssüm əskik olmazdı. Təsadüfən Fərmini kədərli, ya da kefsiz görən tanışları təəccüb edərdi. O nə qədər həyatsevər, nə qədər nikbin, nə qədər vətənpərvər idi. Azərbaycan bayrağına xüsusi məhəbbəti vardı. Öz toyunda bəy maşınını və toy həyətini Azərbaycan bayrağı ilə bəzəmişdi. Bu onun öz arzusu idi. Kiçik ürəyində ümman qədər Vətən sevgisi vardı. Elə bu sevgi onu müharibənin ən qaynar nöqtələrinə apardı. Ağır döyüşlərdən birində qəhrəmancasına şəhid oldu.

Fərmin ailədə tək oğul idi. Məzuniyyətə gəldiyi günlərdə də dincəlməz, təsərrüfat işlərində atasına kömək edərdi. Ata-anasını çox sevirdi. Həmişə deyirdi ki, tələsməyin, işləyib sizin işinizi yüngülləşdirəcəyəm.

İgid eloğlu hansı yolu tutduğunu çox gözəl anlayırdı. 27 sentyabr – müharibənin birinci günü evə zəng edir. Toyundan cəmi 9 ay keçməsinə baxmayaraq, sanki illərin ailə başçısı kimi öz həyat yoldaşına deyir: “Sizi sevdiyim qədər Vətənimi də sevirəm. Mən şəhid olsam, siz Vətənə əmanətsiniz. Sən güclü və ağıllı qadınsan. Hər şeyin öhdəsindən gələcəyinə inanıram. Doğulacaq körpəmə yaxşı baxarsan. Qismət olsa, görüşərik”.

Çox təəssüf ki, qəhrəman şəhidimizə bu görüş qismət olmadı. O bu dünyadan nakam getdi. Şəhid olduğunun 23-cü günü Fərminin oğul övladı dünyaya gəldi. Fərminin öz arzusu ilə uşağa babasının adını verdilər: Əliyev Fərman Fərmin oğlu.

İnanırıq ki, bu oğul ata məhəbbəti, ata nəvazişi görməsə də, öz atası ilə fəxr edəcək, qürur duyacaq. Atası haqqında yazılanları sevə-sevə oxuyacaq, sinəsi fəxarət hissindən qabaracaq. Öz övladlarına, nəvə-nəticələrinə atasının qəhrəmanlığından, qorxmazlığından, vətənsevərliyindən danışacaq və igid atasını görmədiyinə təəssüflənəcək.

Bu gün Fərminin ata-anası, həyat yoldaşı, doğmaları qüdrətli ordumuzun cəbhədəki qələbəsi ilə təsəlli tapırlar. Bir də onun döyüşlərdə göstərdiyi şücaətin dövlətimiz, Ali Baş Komandanımız tərəfindən qiymətləndirilməsi ilə. Şəhidimiz döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə “Vətən uğrunda” medalı və “Azərbaycan bayrağı” ordeni ilə təltif edilib.

*Rahat yat, qardaşım! Sənin çox sevdiyin Azərbaycan bayrağı bütöv Qarabağda, Şuşada dalğalanır. Ruhun şad olsun.*

**Sədaqət İSMAYILLI**
***“Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin əməkdaşı***

# “Xarı bülbül” təsvirli xalçanın təqdimatı keçirilib



***Naxçıvan Müəllimlər İnstitutunda üzərində İkinci Qarabağ müharibəsinin qələbə simvolu olan “Xarı bülbül” təsvirli xalçanın təqdimatı keçirilmişdir.***

İnstitutun rektoru Azad Novruzov tədbirdə çıxış edərək bildirib ki, Azərbaycanda xalçaçılıq sənəti qədim köklərə malikdir. Dünya mədəniyyəti içərisində yeri olan Azərbaycan xalçası özünəməxsus ornamentləri ilə fərqlənən sənət nümunəsidir.

Vurğulanıb ki, muxtar respublikada Naxçıvan xalçaçılıq məktəbinin bərpası və öyrənilməsi məqsədilə bir sıra ciddi addımlar atılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə “Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” təsdiq edilmişdir. Həmin proqramın icrası istiqamətində Azərbaycan xalçalarının təbliği, təşviqi, tədqiqi istiqamətində ali təhsil müəssisələrinin də üzərinə mühüm vəzifələr düşür. Həmin vəzifələrin Naxçıvan Müəllimlər İnstitutunda yerinə yetirilməsi istiqamətində Təsviri incəsənət müəllimliyi ixtisasının tədris planına uyğun olaraq müvafiq fənlər tədris edilməkdədir. Tələbələri əllə xalça toxumaq sənətinin sirləri ilə tanış etmək və praktik dərslər keçmək məqsədilə emalatxana yaradılmışdır. Bunlarla yanaşı, institutda uyğun dərnək də fəaliyyət göstərməkdədir.

Sonra institutun İncəsənət kafedrasının nəzdində fəaliyyət göstərən xalça dərnəyi üzvlərinin əl işinə – “Xarı bülbül” xalçasına baxış olub. Qeyd edək ki, bu əl işi xalçamızın II Qarabağ müharibəsində qazandığı Zəfərinə həsr olunub. 1400x2000 sıxlığında, 40x60 santimetr ölçüsündə toxunan xalça Qarabağ yelənlidir. Xalçanın kənarlarında kiçik ölçüdə buta naxışları, mərkəzində isə buta gülü, Azərbaycan bayrağı təsvir olunub. “Xarı bülbül” xalçası institutun xalçaçılıq kabinəsinə verilib.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti***

***Ölkəmizin sürətli inkişafı, cəmiyyət həyatının bütün sahələrində əldə edilən nailiyyətlər idman sahəsində də özünü bariz şəkildə göstərir. İndi bütün regionlarda idmanın inkişafı mühüm prioritetlərdən biri kimi müəyyənləşdirilib. Naxçıvan Muxtar Respublikasında da idmanın kütləviliyinin təmin olunması üçün məqsədyönlü və kompleks xarakterli tədbirlər həyata keçirilir. Məlumdur ki, diyarımızda təkmil idman infrastrukturu yaradılıb və bu proses davamlı xarakter daşıyır. Sağlamlığın təmin olunmasının çox mühüm vasitələrindən biri kimi idmanın həyat tərzinə, fərdi və kollektiv xarakterli sosial vərdişə çevrilməsi üçün sistemli təbliğatın aparılması çox mühüm əhəmiyyətə malikdir. Toxunacağımız idman sahəsi dünyada, təxminən, 250 milyon nəfərin oynadığı, 1,6 milyondan çox komandanın olduğu futboldur. Bu qədər geniş auditoriya kütləsinə malik olmasının səbəbi isə bu idman növünün əyləncə, emosiya və qələbə prinsiplərini özündə birləşdirməsidir.***

*Dövlət proqramı icra olunur*

# Uşaqların və böyüklərin ən sevimli idman növü
# Futbol

*Keçirilən müşavirələr, təsdiq edilən Dövlət proqramı...*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov idmana və idmançılara hər zaman xüsusi qayğı ilə yanaşıb, muxtar diyarımızda idmanın inkişafına, yeni idmançı nəslinin yetişdirilməsinə, idman infrastrukturunun yaxşılaşdırılmasına, yeni idman obyektlərinin tikintisinə, dünya miqyaslı yarışlarda idmançılarımızın böyük uğurlar qazanmasına xidmət edən zəruri tədbirlərin görülməsinə dair müxtəlif sərəncamlar imzalayıb, məqsədyönlü tədbirlər həyata keçirib. Ali Məclisdə Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında müşavirələr keçirilmiş, son olaraq isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır. Bu mühüm dövlət sənədinin icrasında başlıca vəzifə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin üzərinə düşsə də, Təhsil Nazirliyi, idman federasiyaları, şəhər və rayon İcra hakimiyyətləri üçün də konkret tapşırıqlar müəyyənləşdirilmişdir.

Proqramın məqsədi əhalidə sağlam həyat tərzinin formalaşdırılması, uşaq və gənclərin idmana cəlbinin kütləvi xarakter almasının təmin edilməsi, istedadlı idmançıların üzə çıxarılması, bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı maddi-texniki bazanın müasirləşdirilməsi, gücləndirilməsi, idmanın müxtəlif növlərinin inkişafına şəraitin yaradılmasından



ibarətdir. "Sağlam bədəndə sağlam ruh olar", – deyirlər. Dövlət proqramında da idmanla məşğul olan uşaq və yeniyetmələrin zərərli vərdişlərdən uzaq olması, asudə vaxtlarının səmərəli keçirməmələri, sağlam və gümrah, fiziki cəhətdən güclü şəxsiyyət kimi formalaşmaları əsas məqsəd götürülüb. Məhz muxtar respublika rəhbərinin idmana qayğısının da kökündə bunlar durur.

*Futbolun inkişafına töhfə*

İki il öncə Naxçıvan Futbol Federasiyasında aparılan struktur dəyişikliyi muxtar respublikada bu idman növünə olan marağı artırmaqla yanaşı, həm də futbolun inkişaf etdirilməsinin vacibliyini prioritet məsələ kimi qəbul etdi. Ardınca federasiya tərəfindən qəbul edilən 5 illik proqram bu sahənin diyarımızda inkişafının təməlini qoydu. Proqrama nəzər yetirdikdə, əsas məsələnin uşaq futbolunun inkişafı olduğu diqqətdən yayınmır. Həmçinin böyüklər arasında çempionat, kəndlər arasında isə həvəskar çempionatların təşkili, dövlət idarələri və könüllü komandalar arasında Naxçıvan Futzal Liqasının keçirilməsi, beynəlxalq dərəcəli hakimlərin müxtəlif kurs və seminarlar keçmək üçün muxtar respublikaya dəvət olunmaları və futbolçuların daha çox beynəlxalq turnirlərdə iştirakının təmin edilməsi nəzərdə tutulub. Ümumiyyətlə, proqramın icrası zamanı qarşıya qoyulmuş məqsədlər aşağıdakı kimi müəyyənləşdirilib:

– *futbolun infrastrukturunu genişləndirmək, onun maddi-texniki bazasını möhkəmləndirmək;*

– *futbol mütəxəssislərinin hazırlanması sistemini təkmilləşdirmək;*

– *futbolla bağlı təbliğat işini gücləndirmək;*

– *futbol sahəsində futbol təşkilatları və qurumları ilə əlaqələr qurmaq və onları inkişaf etdirmək;*

– *əhalinin bütün təbəqələrinin futbol meydançalarından və qurğularından istifadəsinə imkan yaratmaq.*

Göründüyü kimi, burada futbolun inkişafı üçün bütün zəruri məqamlar nəzərə alınıb. İlk növbədə, yeni futbol meydanlarının, məşq bazalarının tikintisi, mövcud olanları isə müasir standartlara uyğunlaşdırmaq, daha sonra isə həmin idman qurğularında mütəxəssislərin hazırlanması hədəflənib.

*Məsələyə bizim münasibət*

Uşaq futbolundan söz düşmüşkən, insanlar arasında müəyyən suallar yaranır: Uşaq neçə yaşından futbolla məşğul olmağa başlamalıdır? Bəzi məşqçilərin, fikrincə, bunun üçün 6 yaş ən ideal yaş həddi hesab olunur. Ancaq



bəzi ölkələrdə uşaqlar 4 və ya 5 yaşından futbol məktəblərinə üz tuturlar. Təbii ki, bu, uşaqların deyil, valideynlərin arzusu, istəyidir. Ümumiyyətlə, uşaqların daha erkən yaşda futbola başlamaları onların öz həmyaşıdlarından daha sağlam olmalarına, az xəstələnmələrinə zəmin yaradır. Lakin psixoloqların, fikrincə, futbolla məşğul olmaq arzusu valideynlərin deyil, uşağın öz istəyi olmalıdır. Yəni futbol seçimi zamanı öz emosiyalarınıza yox, övladınızın arzu və istəyinə üstünlük verin.

Məsələyə tibbi tərəfdən yanaşsaq, həkimlər 4 yaşına qədər uşaqların idman seksiyalarına yazılmasının əleyhinədir, çünki fiziki yüklənmələr, hələ də tam formalaşmamış uşaqların sağlamlığı üçün zərərli ola bilər. Elmi-praktik araşdırmalar da bunu deməyə əsas verir ki, peşəkar futbola aparan yol, ilk növbədə, topla oynamağa olan maraq və həvəsdən başlayır. Digər tərəfdən uşağın futbolçu kimi yetişməsi üçün onların futbola olan maraq və həvəsi stimullaşdırılmalıdır. Yəni belə uşaqlar futbolla məşğul olmağa meyilləndirilməlidir.

*Futbol Federasiyasının gördüyü işlər*

"2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nda nəzərdə tutulan muxtar respublikaya təcrübəli məşqçilərin dəvət olunması,



yerli məşqçilərə təlimlərin, idmançılara nümunəvi dərslərin təşkili kimi zəruri vəzifələrin icrası Futbol Federasiyasının diqqətindədir. Belə ki, ötən dövr ərzində orta məktəblərdə idman müəllimləri üçün "D" lisenziyası verən kurs təşkil olunub və kursda 30 məşqçi-müəllim iştirak edib. Cari ildə isə AFFA ilə birgə muxtar respublikada gənc məşqçilər üçün UEFA-nın "C" kateqoriyalı 3 moduldan ibarət məşqçilik kursu keçirilib. Eyni zamanda federasiyanın qapıçılar üzrə koordinatoru Amil Ağacanovun Türkiyədə keçirilən komandaların təlim-məşq toplanışında, həmçinin Bakıda təşkil olunan UEFA-nın "B" kateqoriyalı məşqçilik kursunda iştirakı təmin edilib. Futbol hakimlərinin yetişdirilməsi federasiyanın prioritet məsələlərindən biridir. Hazırda hakimlərin nəzəri və praktik biliklərini artırmaq məqsədilə dərslər təşkil olunur, AFFA-nın Hakimlər Komitəsinin üzvü olan beynəlxalq dərəcəli referilər Naxçıvana səfər edir, təlimlər, seminarlar keçirilər.

İdman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi məsələsi də diqqət mərkəzindədir. Naxçıvan Futbol Federasiyasının nümayəndələri ötən dövr ərzində Türkiyənin Mersin şəhərində İtaliyanın "İnter" Futbol Klubunun akademiyasında olublar. Akademiyada gedən məşqləri izləyən federasiya rəsmiləri klubun Türkiyə nümayəndə heyətinin rəhbəri Hüseyn Kılavuzla da görüşüblər. Görüş zamanı gələcək işlər barədə fikir mübadiləsi aparılıb və dünyanın məşhur klubunun akademiyasının muxtar respublikamızda da nümayəndəliyinin açılması məsələsi müzakirə edilib. Bununla yanaşı, Mersin şəhərinin klubları ilə görüşlər keçirilib, gələcəkdə Naxçıvan və Mersin şəhərlərinin komandaları arasında təşkil olunacaq futbol görüşləri, eləcə də uşaq futbolu ilə bağlı məsələlər təhlil edilib. Səfər çərçivəsində muxtar respublikamızda futbol hakimlərinin inkişafı məsələləri də diqqətdə saxlanılıb. Belə ki, federasiya nümayəndələri uzun illər Türkiyənin FİFA referisi olmuş, hazırda Toroslar (Mersin) Bələdiyyəsi idman şöbəsinin müdiri vəzifəsində çalışan Vedat Yüksəllə görüşüb. Görüş zamanı hakimlərin hazırkı vəziyyəti müzakirə edilib və türkiyəli hakimin muxtar respublikamızda gənc hakimlər üçün seminarlarda iştirakı təsdiqlənib.

Muxtar respublikamızın mötəbər idman yarışlarına ev sahibliyi etməsi də artıq ənənə halını alıb. Federasiya tərəfindən təşkil olunan futbol üzrə 13-14 yaşlılar arasında beynəlxalq turnirin keçirilməsi təsadüfi xarakter daşımır. Heç şübhəsiz, Naxçıvanın ümumi inkişafı, yüksək səviyyəli infrastruktura sahib olması, etibarlı sabitlik, təhlükəsizlik mühiti, qonaqpərvərliyi və digər amillər bu qərarların verilməsində mühüm rol oynayıb. Digər tərəfdən diyarımız ev sahibliyi etdiyi bütün beynəlxalq tədbirlərə, o cümlədən də idman yarışlarına böyük məsuliyyətlə yanaşır və özünün yüksək standartlarını təsdiq edir.

Son illər diyarımızda idmanın müxtəlif növlərinin inkişafı, maddi-texniki bazanın müasirləşdirilməsi istiqamətində müxtəlif layihələr reallaşdırılır. Muxtar respublika rayon-



larında yeni stadionların yaradılması və təmiri də diqqətdə saxlanılıb.

Muxtar respublikada idman infrastrukturunun modernləşdirilməsi də mühüm məsələlərdən biri hesab edilir. Naxçıvan Futbol Federasiyasının bu istiqamətdə həyata keçirdiyi növbəti layihə təlim-məşq kompleksinin yaradılmasıdır. Uzunoba gölünün ətrafında inşa edilən bu idman kompleksi müasir standartlara cavab verməklə yanaşı, həm də futbolun muxtar respublikada kütləviliyinə birə-beş təkan verəcək. Ərazisinə iki tribunadan ibarət süniörtüklü futbol stadionu, iisütörtülü və hasara alınmış minifutbol meydançaları, iki tribunalıq çimərlik futbolu stadionu və inzibati bina daxil olan təlim-məşq idman kompleksində tribunaların daxilində paltardəyişmə, hakim və həkim otaqları da mövcuddur.

*Nəticə...*

Qəbul edilən Dövlət proqramı cəmiyyətdə sağlam həyat tərzi prinsiplərinin təbliğ edilməsi, bədən tərbiyəsi və idmanla məşğul olan vətəndaşların sayının artırılması, muxtar respublikanın ümumtəhsil məktəblərində, ali və orta ixtisas təhsili müəssisələrində, uşaq-yeniyetmə idman məktəblərində idmanla məşğul olan uşaq, yeniyetmə və gənclərin sayının artması, istedadlı uşaqlar üçün idmanın müxtəlif növləri üzrə məktəblərin yaradılması, maddi-texniki bazanın inkişafı nəticəsində yeniyetmə və gənclərin idmana cəlb edilməsi, idmançıların sosial problemlərinin həllinə yönəlmiş mühüm dövlət sənədidir. Futbol Federasiyası da muxtar respublikada idmanın inkişafına göstərilən hərtərəfli dövlət qayğısından, yaradılan şəraitdən səmərəli istifadə etmək vəzifəsini layiqincə yerinə yetirməyə çalışır. Yeni yaradılan təlim-məşq idman kompleksi bunun daha bir əyani sübutudur...

✍ **Ceyhun MƏMMƏDOV**

## 2021-ci ilin aprel ayı ərzində Məşğulluq mərkəzləri tərəfindən keçiriləcək əmək yarmarkalarının qrafiki

| № | Məşğulluq mərkəzləri | Yarmarkanın keçiriləcəyi yer | Yarmarkanın keçirilmə tarixi | Yarmarkanın keçirilmə vaxtı |
|---|---|---|---|---|
| 1. | Sədərək rayonu | Sədərək Rayon Mədəniyyət Şöbəsinin binası | 06.04.2021 | $10^{00}$ |
| 2. | Kəngərli rayonu | Kəngərli Rayon Mədəniyyət Şöbəsinin binası | 08.04.2021 | $10^{00}$ |
| 3. | Şahbuz rayonu | Şahbuz Şəhər "Araz" kinoteatrının binası | 09.04.2021 | $10^{00}$ |
| 4. | Culfa rayonu | Məşğulluq Mərkəzinin inzibati binası | 12.04.2021 | $10^{00}$ |
| 5. | Ordubad rayonu | Ordubad Rayon Mədəniyyət Şöbəsinin binası | 13.04.2021 | $10^{00}$ |
| 6. | Babək rayonu | Babək Rayon Mədəniyyət Şöbəsinin binası | 14.04.2021 | $10^{00}$ |
| 7. | Şərur rayonu | Şərur Rayon Olimpiya İdman Kompleksinin inzibati binası | 15.04.2021 | $10^{00}$ |
| 8. | Naxçıvan şəhəri | Naxçıvan Regional Peşə Tədris Mərkəzi | 20.04.2021 | $10^{00}$ |


***İtmişdir***

Babək rayonunun Kərimbəyli kəndində yaşayan Vəliyev İsa Mustafa oğluna məxsus olan 85-T-311 nömrəli traktorun 020286 nömrəli sənədi itdiyindən etibarsız sayılır.

* * *

İbrahimov Zəka Əli oğlunun adına olan Naxçıvan şəhərinin 1-ci küçəsindəki evin 2800 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Əli Cabbarov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 276